İstanbul

# "Son mənzili İstanbul olan azərbaycanlılar" kitabının təqdimatı

*İstanbulda Azərbaycan mühacirət tarixinin tədqiqatçısı Dilqəm Əhmədin "Son mənzili İstanbul olan azərbaycanlılar" kitabının təqdimatı keçirilib.*







Azərbaycanın İstanbuldakı baş konsulluğunun təşəbbüsü və Azərbaycan Respublikasının Beynəlxalq İnkişafa Yardım Agentliyinin (AİDA) dəstəyi ilə ərsəyə gətirilən nəşr XX əsrin əvvəllərində Türkiyəyə köç etmiş və ömrünün sonunadək Vətənimizin istiqlalı amalına sadiq qalmış, bu yolda yorulmadan mübarizə aparan azərbaycanlı mühacirlərin xatirəsinə həsr edilib.

Kitabda Türkiyə dövlətinin arxivindəki sənədlərdən, Azərbaycan mühacirət mətbuatındakı materiallar, müxtəlif dillərdə çap olunan əsərlər, eləcə də müəllifin şəxsi arxivindən istifadə edilib.

İstanbulda dəfn edilən azərbaycanlıların məzarları əsasında hazırlanan nəşrdə 500-ə yaxın nadir fotoşəkillər və sənədlər təqdim edilib.

Tədbirdə baş konsul Nərminə Mustafayeva, Azərbaycanın Bosniya və Herseqovinadakı səfiri Vilayət Quliyev, Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar, Türkiyə parlamentinin müşahidə missiyasının rəhbəri, Türkiyə Böyük Millət Məclisinin (TBMM) Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım, Türkiyə Araşdırmalar İnstitutunun nümayəndəsi Mehdi Gəncəli, Fətəli xan Xoyskinin qardaşı nəvəsi Kərim Mehmedzadə, professor İbrahim Yıldırım və digər natiqlər çıxış ediblər.

Onlar 1918-ci ildən sonra Azərbaycanı tərk etmək məcburiyyəti qarşısında qalan həmvətənlərimizin ağır həyat yolu haqqında danışıblar.

Bildirilib ki, Dilqəm Əhmədin bu insanların ailələri ilə keçirdiyi görüşlər nəticəsində ərsəyə gələn kitabı Azərbaycanın mühacir həyatı yaşayan görkəmli şəxsiyyətlərinin irsinin gələcək nəsillərə çatdırılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Türk dünyasının respublika quruluşlu tarixində ilk dövlətin 1918-ci ildə yaradılan Azərbaycan Xalq Cümhuriyyəti olduğunu qeyd edən natiqlər bildiriblər ki, Azərbaycan xalqı sonradan itirilən bu azadlığı XX əsrin sonlarında bərpa etdi. Bu müstəqilliyi əldə etmək qədər qorumaq da asan deyildi. Azərbaycan öz azadlığını itirmək təhlükəsi ilə üzləşsə də, bununla mübarizə aparıldı. Bu mübarizənin əsaslarından biri də Azərbaycan xalqının böyük təkidlə ümummilli lider Heydər Əliyevi yenidən hakimiyyətə gətirməsi idi. Ulu öndərin ölkəmizin müstəqilliyi və inkişafı üçün atdığı addımlar bugünkü azad, suveren, qalib Azərbaycanın təməllini təşkil edir.

Ölkəmiz ilk dəfə müstəqilliyini itirdikdən sonra Azərbaycanın görkəmli şəxsiyyətləri mühacir həyatına məcbur edildilər və onların böyük əksəriyyəti İstanbula üz tutdu. Onlar təhrif olunan ədəbiyyatımız, tariximiz haqqında həqiqətləri yaymaqla yanaşı, Türkiyənin inkişafında böyük rol oynadılar. Onların həyatı, irsi və xaricdəki məzarlarının qorunub saxlanılması da ulu öndərin diqqət mərkəzində idi və hazırda bu yol Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

"Mən Feriköy məzarlığını Azərbaycanın İstanbuldakı Fəxri xiyabanı adlandırıram". Çıxışını bu fikirlərlə başlayan müəllif Dilqəm Əhməd bununla bağlı ilk fikrin Əhməd bəy Ağaoğlunun məzarını ziyarət etdiyi zaman yarandığını deyib.

Son 8 ildə apardığı araşdırmalar nəticəsində İstanbulun fərqli qəbiristanlıqlarında Azərbaycanın çox sayda görkəmli şəxsiyyətinin məzarlarının olduğunu müəyyən edən Dilqəm Əhməd məhz bu məzarlar əsasında hazırlanan kitabında 60-dan çox şəxs haqqında məlumat verib. Bu şəxslərdən Azərbaycan Xalq Cümhuriyyətinin hərbi naziri Xosrov bəy Sultanov, AXC Parlamentinin üzvü Mir Yaqub Mehdiyev, AXC-nin xüsusi xidmət orqanı olan "Əks-İnqilabla Mübarizə Təşkilatı"nın rəisi Nağı bəy Şeyxzamanlı, AXC-nin ilk baş qərargah rəis Həbib bəy Səlimov, Azərbaycanda türkçülük hərəkatı ideoloqlarından biri Əhməd bəy Ağaoğlu, XX əsr Azərbaycan-türk ictimai fikrinin ən görkəmli nümayəndələrindən biri Əli bəy Hüseyinzadə və digərləridir.

"Ümummilli lider Heydər Əliyevin "Azərbaycan Xalq Cümhuriyyətinin yaranması bizim vaxtilə itirilmiş dövlətçiliyimizi bərpa etdi. Eyni zamanda Azərbaycan Xalq Cümhuriyyətinin yaranması xalqımızın tarixində ilk dəfə demokratik prinsiplər əsasında müstəqil Azərbaycan dövlətinin, hökumətinin yaranmasının əsasını qoydu. Bu gün Azərbaycan Xalq Cümhuriyyətinin yaradıcılarının və Azərbaycan Xalq Cümhuriyyətinin ikiillik fəaliyyətini təmin edən şəxslərin hamısını böyük minnətdarlıq hissi ilə yad edirik. Onların gördüyü işlər və əziz xatirələri Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır", - fikirləri ilə başlayan kitabın ön sözünün müəllifi Azərbaycanın İstanbuldakı baş konsulu Nərminə Mustafayeva, elmi redaktoru isə Vilayət Quliyevdir.

Onu da qeyd edək ki, Dilqəm Əhməd növbəti kitabın Ankara və Türkiyənin bir çox şəhərlərinin qəbiristanlıqlarında dəfn olunan Azərbaycanın mühacir həyatı yaşayan görkəmli şəxsiyyətlərinin həyat hekayələrinə həsr olunacağını bildirib.

**Esmira YAZKAN ASLANOVA,**
**"Respublika" qəzetinin Türkiyə üzrə müxbiri.**